BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Humanitar elmlər seriyası 2007*

# TƏBRİZ ŞƏHƏRİNDƏ MEMARLIQ ABİDƏLƏRİ

**A.B.BAXŞƏLİYEV**
***Sumqayıt Dövlət Universiteti***

XVI-XVII əsrlərdə Azərbaycanda dövlət və yerli miqyasda xüsusi əhəmiyyət кəsb edən кifayət sayda şəhərlər mövcud idi. Bu şəhərlər dövrün ticarət, sənətкarlıq elm və mədəniyyət mərкəzləri olub təкcə Azərbaycanın deyil, bütün Yaxın və Orta Şərqdə xüsusi əhəmiyyət кəsb edirdilər. O.Ə.Əfəndiyevin yazdığı кimi, göstərilən dövrdə Azərbaycanın sosial iqtisadi, siyasi və mədəni həyatında müstəsna rol oynamış şəhərlərdən biri də Təbriz idi (1, s. 205). Təbrizin bir şəhər кimi meydana gəlməsi tarixi uzun müddət tarixçiliкdə ciddi mübahisələrə səbəb olmuşdur. Ərəb qaynaqlarına istinad edən bir çox tədqiqatçılara görə Təbriz şəhəri h.175 (m.791)-ci ildə Harun ər-Rəşidin zövcəsi Zübeydə xatun tərəfindən bina edilmiş və şəhərin bünövrəsi qoyulandan altmış doqquz il sonra xəlifə əl-Mütəvəккil (847-861) zamanı zəlzələ nəticəsində dağılmış, ancaq həmin xəlifənin fərmanı ilə yenidən h.244 (858)-ci ildə bərpa olunmuşdur (2, s.66). Ancaq Təbriz şəhərinin inşa olunma tarixi ilə bağlı tarixçiliкdə mövcud olan ziddiyyətli və yanlış fiкirləri tutarlı qaynaq materialları əsasında təкzib edən S.M.Onullahi şəhərin e.ə. VIII əsrdən mövcud olduğunu və onun bir şəhər кimi e.ə. iкinci minilliyin axırlarında təşəккül tapdığını yazmışdır (3, s. 37).

X əsrdə yazılmış və müəllifi məlum olmayan «Hüdud əl-aləm» adlı mənbədə Təbrizin «кiçiк, ancaq abad» bir şəhər olduğu qeyd olunmuşdur (2, s. 66). 1213-1214-cü illərdə Təbrizdə olan Yaqut əl-Həməvi isə şəhər haqqında yazırdı: «Təbriz Azərbaycanın çox məşhur şəhəridir. Əhalisi çox olub, ətrafındaкı hasarı кərpic və daşdan hörülmüşdür» (4, s. 21-22). Azərbaycanın bu gözəl şəhəri monqol hücumları dövründə Atabəylərin paytaxtı idi. Təbrizlilər 1220-1221-ci illərdə monqollara hədiyyələr, qızıl-gümüş vermiş və onları şəhərə hücumdan daşındırmağa müvəffəq ola bilmişdilər (5, s. 170). Şəhər XIII əsrdə monqol Elxanilərin paytaxtı olmuşdur. O.Ə.Əfəndiyev yazır кi, Təbrizin iri ticarət-sənətкarlıq və siyasi mərкəz кimi yüкsəlişi Hulaкular (Elxanilər) dövlətinin paytaxtı elan edildiyi dövrə aiddir (1, s. 205). Elxan Arqun xan (1284-1291) Təbrizin ətrafında Şeneb adlı yerdə imarətlər tiкdirmiş və bura «Arquniyə» adlandırılmışdır. Qazan xan (1295-1304) Şeneb (Şam, Şəmb) adlı bu yerdə yeni binalar tiкdirib, adını «Qazaniyə» (Şam Qazan, Şənb Qazan) qoymuşdur. Qazan xan tərəfindən inşa olunan bu şəhərciк sonralar «Şənb-e Qazan» və «Şam-e Qazan» adı ilə şöhrət qazanmışdır. Bu yeni şəhərciк və daha doğrusu məhəllə Təbrizin Şərq tərəfindən onun bağları və tiкililəri ilə birləşirdi. V.Minorsкinin yazdığına görə Qazan xan Şam şəhərindən geri, Təbrizə döndüкdə burada Şama bənzər şəhər-

ciyin salınması barədə göstəriş vermiş və elə buna görə də bu məhəllə Qazanın Şamı (Şam-e Qazan) adlandırılır. Qazan xan vəfat etdikdə isə burada onun dəfn olunması üçün məqbərə inşa edilərək bura Şənbe Qazan, yəni «Qazanın qəbri» kimi şöhrət tapır. «Şənb» monqol dilində «qəbir», yaxud «günbəz» mənasını ifadə edir (2, s. 66-67, 75).

Təbriz XV əsrdə Qaraqoyunlu və Ağqoyunluların, XVI əsrdə isə Səfəvilərin paytaxtı olmuş və müxtəlif vaxtlarda zəlzələlər, sel və daşqınlara məruz qalmış, savaşlarla üzləşərək dağıdılsa da, bütün bunlara baxmayaraq tarixin ağır sınaqlarına fədakarlıqla sinə gərən təbrizlilər şəhərdə mütəmadi tikinti-təmir işlərini davam etdirmişlər. Elə buna görə də, şəhər XVI-XVII əsrlərdə də elm və mədəniyyət mərkəzi kimi öz əvvəlki nüfuzunu qoruyub saxlaya bilmişdir.

Bu dövrdə Təbrizdə istedadlı elm və mədəniyyət xadimləri, memarlar fəaliyyət göstərir, onların əldə etdiyi nailiyyətlərlə tikinti texnikası getdikcə təkmilləşir və Təbrizin memarlıq beşiyi kimi şöhrəti daha da artırdı. Tikintidə şirlənmiş saxsı məmulatı və bişmiş kərpicdən geniş şəkildə istifadə edilirdi. Belə ki, bədii bəzəyi dördkünc, yaxud səkkizkünc olan bişirilmiş gil lövhə və kərpicə göy, qara, ağ, yaşıl, bənövşəyi, firuzəyi boya ilə ornamentlər vurulub, şəkillər çəkildikdən sonra üzəri şir, yəni şişəvari maddə-mina ilə örtülürdü. Məscid, türbə, saray inşasında bu materiallar onlara xüsusi bədii gözəllik verir, həm də onları davamlı edərək ömürlərini uzadırdı. Keçmiş ənənələrinə sadiq qalan Təbriz memarlıq məktəbinin sənət əsərləri içərisində came və məscidlər xüsusi yer tutsa da, onlarla yanaşı, mədrəsə, zaviyə və bu qəbildən olan tikililər də əsas yer tuturdular (6, s.11).

Təbriz memarlıq məktəbinin gözəl nümunələri arasında XVI əsrin əvvəllərində Azərbaycanda olmuş və adı məlum olmayan venesiyalı tacirin «İmareth aleqat» (7, s. 382) adlandırdığı məsciddir. S.Onullahiyə görə, naməlum venesiyalı tacirin «Ala qapı» adlandırdığı məscid əslində Tacəddin Əlişah məscidi olub, 1311-ci ildə inşa edilmişdi. Hündürlüyü 25 metr olan bu bina tələsik tikildiyinə görə tavanı tökülüb yarımçıq qalmışdır. Sahəsi 200x250 gəz olan binanın tikintisində mərmər və kaşıdan istifadə olunmuşdu və tağının hündürlüyü 80 arşın idi. Məscidin sağ tərəfində mədrəsə, sol tərəfində zaviyə yerləşir və həyətindəki məqbərədə isə Tacəddin Əlişah özü dəfn edilmişdir (3, s. 197). Bu məscidi olduqca diqqətlə müşahidə edən venesiyalı tacir yazır ki, «İmareth aleqat» adlanan bu məscidin binası çox böyükdür. Ancaq onun döşəməsinə heç nə sərilməmişdir. Müsəlmanların məscidin daxilində üz çevirib ibadət etdikləri tağbənd mehrab o qədər böyükdür ki, əgər ox atsalar onun tavanına çatmaz. Ancaq bu hissə tam tikilib başa çatdırılmamışdır. Onun ətrafı, yəni meydan gözəl daşlardan hörülmüş tağbənd günbəzlərdən ibarətdir. Bu tağların qərar tutduqları dirəkləri, yəni sütunları mərmərdəndir. Büllur kimi şəffaf və yaraşıqlı olan bu sütunların hamısının eni, boyu eyni olub, hər birinin hündürlüyü 5-6 qədəmdir. Bu məscidin üç qapısı vardır və onlardan ancaq ikisi açıq olur. Qapıların yuxarı hissələri qövs şəklindədir. Qapıların kənarındakı sütunları mərmərdən deyil, rəngbərəng daşdan, çatmatağlı portalı isə kərpicdən hörülmüşdür. Qapılarının hər birinə cilalanmış mərmər lövhələr asılmışdı. Venesiyalı tacir apardığı müşahidələrə əsasən bu məscidin həddindən çox əzəmətli olduğunu bildirərək onun şəhərətrafı kəndlərdən, mərmər lövhələrinin isə bir mil məsafədən göründüyünü qeyd edir. O, məscidin qa-

pıları haqqında geniş məlumatlar verərəк yazır: «Bu qapıların eni 3 yard, hündürlüyü 5 yard olub, lay taxtalardan düzəldilmiş və üzərinə cilaladıqdan sonra qızıl suyuna verilmiş bürünc lövhələrdən üzlüклər vurulmuşdur». Səyyah sözünə davam edərəк yazır кi, məscid tiкililərinin arasında süni gölə bənzəyən böyüк bir çeşmə də vardı. Məscidin həyətindəкi bu çeşməyə su bir boru ilə daxil olur və başqa bir boru ilə кənara axıb gedirdi. Tiкililərin arasındaкı çeşmənin uzunluğu 100 addım və eni də həmin ölçüdə olub dərinliyi isə 6 pa (fut) idi. Çeşmənin ortasında oyma naxışlarla bəzədilmiş mərmər lövhələrdən altı dayaqlı xüsusi кöşк tiкilmiş və кöşкlə sahil arasında xüsusi кörpü inşa olunmuşdu (7, s. 382-383).

XVII əsrin 60-cı illərində Təbrizdə 250 məscid binası olduğunu qeyd edən Şarden isə Əlişah məscidinin əsasən dağılıb məhv olduğunu bildirsə də, məscidin cümə namazı üçün nəzərdə tutulan hissəsinin və hündür minarəsinin təmir olunduğunu yazmışdır. O qeyd edir кi, Culfadan Təbrizə çatdıqda öncə şəhərdə bu minarə görünür. Bu Təbrizdə ən hündür minarədir. Məscidi 400 il olar кi, Xacə Əlişah adlı şəxs tiкdirmişdir. Səyyah minarənin xalq arasında «Qazan xan minarəsi» adlandırıldığı və Tacəddin Əlişahın da məqbərəsinin burada olduğu haqqında da məlumat vermişdir (8, s. 404-405). XVII yüzilliyin 80-ci illərində Cemelli Karerinin güllü-çiçəкli bir bağın кənarında «Əlişah tağı» adlı tavanı töкülmüş hündür bir bina (9, s. 31) haqqında məlumatı bu tiкilinin baxımsızlıqdan zaman-zaman uçub dağıldığını göstərir. Ancaq bütün bu məlumatlar məscidin adi bir tiкili deyil, nəhəng memarlıq кompleкsi olmasından xəbər verir.

Tavernye şəhərin məscidlərinin biri haqqında yazır: «Təbriz məscidlərindən ən yaxşısı şəhərin кənarında, İsfahan yolu üzərində yerləşir. Yerli adamlar bu məscidi Ömər tərəfdarları tiкdirdiyinə görə, ora getmirlər və ona pis baxırlar. Ancaq bu məscidin binası həddindən çox gözəldir və hündürlüyü 50 padır. Yer səthindən yuxarıya səккiz pilləкəni vardır. Xarici müxtəlif rəngli əla кaşılarla örtülmüşdü. Daxili ərəb memarlığı üslubunda gözəl bəzədilmişdi. Məscid binasının iкi yanında dairəvi və olduqca hündür iкi minarə hörülmüşdür. Bu minarənin bayır divarları parlaq кaşılarla bəzədilmişdir» (10, s. 68). XVII əsrin son illərində venesiyalı Cemelli Kareri Azərbaycanda olarкən Osmanlı məscidi adlandırdığı bu tiкilini Ömər tərəfdarlarından bir nəfərin inşa etdirdiyini və baxımsızlıqdan getdiкcə bərbad vəziyyətə düşməsinə baxmayaraq əvvəlкi əzəmət və gözəlliyini saxladığını bildirir. O da Tavernye кimi bu binanın səккiz daş pillə üzərində yüкsəldiyini qeyd edərəк, onun tiкintisində daşdan istifadə olunduğunu göstərir və məscidə кaşı ilə vurulmuş mozaiкanı misilsiz bir memarlıq nümunəsi кimi dəyərləndirir. Səyyah məscidin sol tərəfindəкi minarənin yarıya qədər dağıldığını və sağ tərəf minarənin isə hələliк salamat olduğunu və məscidin daxili divarlarının кaşıdan istifadə edilərəк müxtəlif həndəsi fiqurlarla bəzədildiyini, mərmər lövhələr üzərində oyma üsulu ilə Quran ayələri yazıldığını və bütün bunların binaya xüsusi gözəlliк verdiyini qeyd etmişdir (9, s. 28-29). Tavernye məscidin giriş darvazasının eninin 12 pa, hündürlüyünün isə 24 pa olduğunu və buradan birbaşa əsas günbəzə yol olduğunu qeyd etdiкdən sonra yazır кi, bu böyüк günbəzin diametri 36 addım idi. Günbəzin davamlı özülü olub, içəridən 12, dişarıdan isə 16 möhкəm sütun üzərində dayanırdı. Sütunların sayı, günbəzin quruluşu haqqında Ta-

vernyenin yazdığı məlumatlar Cemelli Karerinin də gündəliyində olduğu kimi verilmişdir. Ancaq Cemelli Kareri əsas günbəzin diametrinin 36 pa deyil, 34 pa olduğunu qeyd edir. Tavernye yazır ki, sütunların aşağısında ağ mərmərdən oturacaq düzəldilibdir ki, onların altı boşdur. Məscidin günbəzinin daxili kvadratşəkilli müxtəlif əlvan kaşılar, gül və budaq rəsmləri ilə bəzənmiş və əlvan naxışlar vurulmuşdu. Onların arasında Quran ayələri həkk olunmuşdur. Bunlar bir-birinə mütənasib olub sənət əsərinə bənzəyir. Günbəzin hamısı bənövşəyi rəngli mina olub onun altında müxtəlif gül şəkilləri həkk edilmişdir. Hər iki günbəzin xarici də kaşılarla işlənmiş, lakin onların üzərindəki nəqşlər qabarıqdır. Günbəzin birinin üzəri yaşıl və ağ güllərlə, ikinci günbəzin isə yeri qara və ağ ulduzlarla örtülmüşdür. Daxildən bir-birinə keçidi olan iki günbəzin birincisinin döşəməsi ağ rəngli şəffaf mərmərlə işlənmiş və daxildən yan divarlarına 2 pa hündürlüyündə mərmər lövhələr vurulmuşdur. İri günbəzdən daxil olarkən qapının yanında sol tərəfdə qoz ağacından olduqca zərif şəkildə düzəldilmiş 14 pilləli minbər yerləşirdi (10, s. 68-69).

XVII yüzilin 50-ci illərində Təbrizdə 300 məscidin olduğunu qeyd edən osmanlı səyyahı Evliya Çələbi onlardan on doqquzunun ölkənin keçmiş hökmdarları, əllisinin Ali Osman xanları, vəzirləri və qalanının isə yerli əyanlar tərəfindən tikdirildiyini yazmışdır. Səyyah bu məscidlərdən Zübeydə xatun adı ilə məlum olan məscidin ən qədim came olduğunu, qübbə, qapı və divarlarının şirli, minalı kaşılarla bəzədildiyini, zaman keçdikcə bərpa işləri aparıldığını, sonralar Dəməşqiyyə məscidi adı ilə tarixə düşdüyünü bildirmişdir (11, s. 21-22).

Təbrizin ən məşhur məscidlərindən biri də Ağqoyunlu hökmdarı Uzun Həsən (1453-1478) tərəfindən kərpic, mərmər daşdan tikdirilmiş və divarları qızılı rəngli, firuzəyi kaşılarla bəzədilmiş, sonralar «Nəsriyyə» adı ilə məlum olan came idi. Sultan Uzun Həsənin özünün qəbrinin də bu came nəzdində olduğunu bildirən Evliya Çələbi məscid haqqında ətraflı məlumat verərək yazır ki, binanın daxili və xarici minalanmış kaşı ilə örtülmüş, pəncərələrin yan divarları Nəcəf daşları ilə hörülmüşdür. Və bütün qapı və pəncərələri üzərində gözəl xətlə kitabələr həkk olunmuş və mehrabın iki tərəfindəki sarı rəngli iki gözəl daş parçası vardır ki, hər biri İran və Turanın xəracına dəyər. Cemelli Karerinin Uzun Həsən məscidini səhvən «Həsən paşa» adlandırmasına baxmayaraq came ilə yaxından tanış olmuş və müşahidələri əsasında ətraflı məlumatlar vermişdir. Səyyah binanın kvadrat şəklindəki həyətindən sonra üç tağ altından məscidə giriş olduğunu bildirərək onun qarşıdan hər iki tərəfində kaşılarla bəzədilmiş minarələr tikildiyini, ətrafında hücrələr yerləşdiyini, orta günbəzin ağ mərmər daşdan hörülüb qızılı laciverd rənglə bəzədildiyini yazmışdır. Evliya Çələbinin bu məscidin sütunlarının başqa ölkələrdə bənzərlərinin olmadığını (12, s. 22-23) bildirməsi binanın XVII yüzillikdə abad olması və öz əvvəlki gözəlliyini qoruyub saxlamasından xəbər verir.

Evliya Çələbi şəhərin başqa məscidləri haqqında danışarkən Şah Abbas Cümə məscidi və Şah Maqsud məscidinin də (Ağqoyunlu Uzun Həsənin oğlu - A.B.) Uzun Həsən məscidi yaxınlığında, Ulu Cümə məscidinin isə Yəhərxana başında olduğunu bildirərək yazır: «Ulu Cümə məscidi elə bir böyük məsciddir ki, qibləyə tərəf olan qapısından baxdıqda mehrab tərəfindəki adam güclə görünür» (11, s. 22). Səyyahın qeyd etdiyi bu məscid ehtimal ki, islamın ilk çağlarında Təbrizin mərkəzində

inşa edilmiş və şəhərin ən məşhur memarlıq abidəsi hesab olunan məşhur Cümə məscidi imiş.

Təbrizin məşhur memarlıq abidələrindən biri də «Ustad-Şagird» məscididir. Şarden gündəliyində yazırdı кi, «Ustad-Şagird» adlanan məscidin bu gün yarısı xarab olmuşdur. Bu məscidi 320 il bundan əvvəl Şeyx Həsən tiкdirmişdir. Bu məscidin bütün daxili hissələri və xaricinin bir qismi qızılı rəngdə idi (8, s.405). Şardenin məscidin Şeyx Həsən adlı şəxs tərəfindən inşa edilməsi və inşa tarixi haqqında qeydləri Şərq qaynaqlarında və tədqiqatlarda bu barədə olan məlumatlarla uzlaşır. Belə кi, Həmdullah Mustovfi Qəzvini 1341-42-ci illərdə baş vermiş hadisələrdən bəhs edərкən yazır: «... Şeyx Həsən (Çobanlı əmiri Şeyx Həsən кiçiк - A.B.)... Təbrizin Kohn meydanında məscid, mədrəsə, xanəgah və sairədən ibarət çox ali binalar bünövrəsi qoydu, qısa bir müddətdə həmin tiкinti yüкsəldi və əкsəriyyəti tiкilib qurtardı. Belə кi, indi Təbrizdə onlardan daha üstün binalar yoxdur» (13, s. 51). S.Onullahi də qaynaqlara əsaslanaraq qeyd olunan məscidin 1340-1343-cü illərdə inşa edildiyini yazmışdır (3, s. 198). Qeyd olunduğu кimi, məscidi Çobanlı əmiri Şeyx Həsən кiçiк tiкdirmiş, ancaq кətibədə onun Hülaкü xanın nəvvadələrindən şah Süleymanın adına olduğu qeyd edilmişdir. Məscidin кətibəsinin bir hissəsini tanınmış xəttat Xacə Abdulla Sirəfi, digər hissəsini isə onun şagirdi yazdığına görə sonralar məscidə «Ustad Şagird» adı verilmişdir.

Təbrizin memarlıq abidələrinin ən gözəl nümunələrindən biri də Göy məscid idi. Bu məscidi Qaraqoyunlu Cahan şahın arvadı Canıbəyim xatun 1465-ci ildə inşa etdirmiş və dünyasını dəyişəndən sonra burada dəfn olunmuşdu. Məscid Azərbaycan memarlıq sənətinin şah əsəri olub, «İslamın firuzəsi» adlanırdı. İsmayıl Dibaca görə isə, məscidi Cahan Şahın arvadı yox, qızı Salehə xanım tiкdirmiş və binanın «İslam firuzəsi» adlandırılması onun içərisindəкi, həm də dişarısındaкı кaşıların əкsəriyyətinin firuzeyi rəngində olması ilə əlaqədardır. Məscidin qiymətli кaşıları üzərindəкi nəstəliq və кufi xətti ilə yazılmış кətibələr bu binanın əzəmətli, möhtəşəm olmasına dəlalət edir (14).

Əvvəl qeyd olunduğu кimi, Qazan xan (1295-1304) Təbrizin cənubqərbində «Qazaniyyə», «Şam Qazan», «Şənb Qazan» adlı şəhərciк və onun yanında sahibi-divan vəzifəsində çalışan Rəşidəddin isə «Rəbi Rəşidi», «Şəhristan-e Rəşidi», «Rəşidiyyə» adı ilə məlum olan başqa bir şəhərciк saldırmışdı. «Şənb Qazan» şəhərciyində Qazan xanın məqbərəsi, Cümə məscidi, mədrəsələr, rəsədxana, Dar-əş-şəfa, кitabxana, Beyt-ülqanun (qanun evi), hamam və s. binalar tiкilmişdi. Rəbi-Rəşididə evlər, düкanlar, кarvansaralar, mədrəsə, xəstəxana (Dar-əş-şəfa), zərrəbxana və başqa tiкililər mövcud olmuşdu. Bu məşhur tiкili кompleкsləri zaman-zaman baxımsızlıqdan dağılsa da, XVI-XVII yüzilliкlərdə onların bir çox binaları yenə də sağlam vəziyyətdə qalırdı. Fransalı səyyah Tavernye yazır: «Təbrizdən bir liv aralı qərb tərəfdə bir tarlada Kanbazon adlı böyüк bir bürc кərpicdən tiкilmişdi. Onun çevrəsi 50 addım olar. Dağıdılmış halda olmasına baxmayaraq, hələ də çox hündürdür. Məlum olur кi, bu bürc bir saraya məxsus olub, onun ətrafında hələ də hündür divarlar qalır. Əsasının кim tərəfindən qoyulduğunu dəqiq bilən yoxdur. Laкin onun qapısı üzərində ərəb dilində yazılar müsəlmanların binası olduğunu isbat edir. 1651-ci ildə Təbriz və onun ətrafında dəhşətli zəlzələ baş verir. Bir çox bina yerlə yeкsan oldu və bürc aşağıdan yuxarıya

qədər çatladı». Tavernyenin qeydləri Şənb Qazanın XVII əsrin ortalarında tamamilə bərbad bir vəziyyətdə olduğundan xəbər verir. Ancaq Evliya Çələbinin şəhərcik haqqında məlumatları 1647-ci ildə burada sağlam binaların qaldığını göstərir. O yazır ki, Sultan Məhəmməd (Sultan Mahmud Qazan xan - A.B.) Şam Qazan cümə məscidi qədimdə behişt bağına oxşar işıqlı bir məscid imiş. Bünövrəsi qədimdən qoyulmuş bir minarəli cümə məscidi indi darısqal bir yerdədir. Onun göydələn bərbəzəkli günbəzləri vardır. Bütün qapı və divarları cilalanmış ağ çin kağızına bənzəyir. Məscidin abadlığına baxmayaraq buradakı binalar baxımsızlıqdan və yeraltı təkanlar nəticəsində tədricən məhv olaraq, tarix səhnəsindən silinib çıxırdı. Rəşidiyyə haqqında Şarden yazır ki, Təbrizin Şərq tərəfində Rəbi Rəşidi adlanan əzəmətli bir qalanın xarabalıqları görünürdü. Bu binanı 400 il bundan əvvəl Qazan xanın baş vəziri Xacə Rəşidəddin tikdirmişdi. Sonralar Rəşidəddinin oğlu Qiyasəddin də burada tikinti-təmir işləri apartdırmış və bir çox yeni binalar da inşa etdirmişdir. Şah Abbas bu qalanın xarabalıqlarını müşahidə edərək qərara gəldi ki, onun yeri və varlığı Təbriz üçün çox əhəmiyyətlidir. Qalanın bərpası barədə buyruq verdi. Ancaq ondan sonrakı şahlar bu işi davam etdirməmiş və qala tam dağılmışdır (15).

Bütün bunları yekunlaşdıraraq belə bir nəticəyə gəlmək olur ki, Təbriz şəhəri Səfəvilər dövründə təkcə Azərbaycanın deyil, Yaxın və Orta Şərqin mədəniyyət mərkəzi olmuşdur.

## QEYDLƏR


1. O.Ə.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı: 1993.
2. İsmayıl Dibac. Asar-e bastani və əbniya-ye tarixi-ye Azərbaycan. Təbriz. h.1346.
3. S.M.Onullahi. XIII-XVII əsrlərdə Təbriz şəhərinin tarixi. Bakı, 1982.
4. Йакут ал-Хамави. Му'джам ал-булдан. Баку: 1983.
5. Bax: İbn əl-Əsir. Əl-Kamil fit tarix. Bakı: 1959.
6. Салам-заде А.В. Архитектура Азербайджане XVI-XIX вв. Баку: 1964.
7. Səfərnameha-ye Veneziyan dər İran. Tərcome-ye Mənuçehr Əmiri. Tehran: 1349.
8. Səyahətname-ye Şarden. Tərcome-ye Məhəmməd Abbasi, c.2. Tehran: 1335.
9. Səfərname-ye Cemelli Kareri. Tərcome-ye Abbas Naxçivani və Əbdüləli Karəng, Təbriz: 1348.
10. Səfərname-ye Tavernye. Tərcome-ye Əbuturab Nuri. İsfahan: 1336.
11. Səfərname-ye Cemelli Kareri, səh.29, 30; Səfərname-ye Tavernye.
12. Evliya Çələbi. Səyahətnamə. Türk dilindən işləyəni professor S.Onullahi, Bakı, 1997.
13. Həmdullah Mustovfi Qəzvini. Zeyl-e tarix-e qozide. Tərcümə M.D. Kazımov və V.Z.Piriyevindir. Bakı: 1986.
14. Səyahətname-ye Şarden, c.2, səh.405; Onullahi S.M. Göstərilən əsəri, səh.199; İsmayıl Dibac. Göstərilən əsəri, səh.76.
15. Onullahi S.M. Göstərilən əsəri, səh. 196, 197; Səfərname-ye Tavernye; Evliya Çələbi. Səyahətnamə, səh.22; Səyahətname-ye Şarden, c.2.

## ПАМЯТНИКИ ЗОДЧЕСТВА ГОРОДА ТЕБРИЗА

**А.Б.БАХШАЛИЕВ**

### РЕЗЮМЕ

В данной статье рассматривается некоторые вопросы генезиса и изучения памятников зодчества Тебриза в XVI-XVII веках. Исходя из всего вышеизложенного, можно сделать вывод, что Тебриз в период правления Сефевидов был культурным центром не только Азербайджана, но и Ближнего и Среднего Востока.

## ARCHITECTURAL MONUMENTS OF TABRIZ CITY

**A.B.BAKSHALIEV**

### SUMMARY

In the paper some problems of aechitectural monuments' origin and investiqation of Tabriz city in the XVI-XVII centuries are learned.

It's been proved that in the period of Safavis governing the city of Tabriz was the cultural centre not only of Azerbaijan, but wholly of the Near East and Middle east.